

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 7 fevral 2024-cü il №9 (2820) https://mod.gov.az Qiymөti 30 qəpik


## Türkiyə Respublikasının Prezidenti Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,

Əziz Qardaşım,

2023-cü ilin fevralında Türkiyədə baş vermiş və on minlərlə insanın həyatına son qoymuş dəhşətli zəlzələlərdən bir il ötür. Bu faciə nəticəsində həlak olmuş bacı-qardaşlarımızın əziz xatirəsini dərin hörmət və ehtiramla yad edir, onlara uca Allahdan rəhmət, doğmalarına və yaxınlarına səbir diləyirəm.

Bu fəlakət Türkiyəni olduğu kimi, Azərbaycanı da dərindən sarsıtdı. Xalqımız həmin ağır günlərdə qardaş Türkiyə xalqı ilə bir ürək olaraq, faciənin ağrı-acısını bölüşdü, sonsuz kədərini birlikdə yaşadı. Zəlzələ xəbərinin ilk dəqiqələrindən heç bir yardım çağırışını gözləmədən Azərbaycan xalqı və dövləti öz qardaşlıq borcunu yerinə yetirmək üçün bütün imkanlarını səfərbər etdi. Baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması işlərinə və axtarış-xilasetmə əməliyyatlarına cəlb olunmuş xilasedicilərimiz, həkimlərimiz və könüllülərimiz türkiyəli həmkarları ilə çiyin-çiyinə böyük cəsarətlə, əzmlə və fədakarlıqla fəaliyyət göstərdi. Dövlət və özəl qurumlarla yanaşı, kiçikdən-böyüyə hər bir soydaşımız zəlzələ qurbanlarına dəstək və mənəvi dayaq olmaq üçün əlindən gələni əsirgəmədi.

Sizin qətiyyətli rəhbərliyiniz altında Türkiyə Hökuməti zəlzələnin səbəb olduğu irimiqyaslı dağıntıların aradan qaldırılması, zərər çəkmiş bölgənin dirçəldilməsi, evsiz qalan milyonlarla insanın evlə təmin edilməsi üçün var qüvvəsi ilə çalışır. Azərbaycan da hazırda Kahramanmaraş vilayətində humanitar fəaliyyətini davam etdirərək, burada aparılan yenidənqurma və bərpa işlərində, sosial obyektlərin inşasında yaxından iştirak edir. Biz bu nəcib və şərəfli missiyada Türkiyənin yanında olmağımızdan böyük qürur duyuruq.

Bütün bunlar Azərbaycan-Türkiyə sarsılmaz birliyinin və həmrəyliyinin növbəti təzahürü olaraq qardaşlıq salnaməmizə əbədi olaraq həkk olundu. Türkiyə yaxşı gündə və hüznlü gündə Azərbaycanın yanında olduğu kimi, biz də daim Türkiyənin yanındayıq və bundan sonra da olacağıq. Çünki biz bir millət, iki dövlətik.

Əminəm ki, Sizin liderliyiniz, Türkiyə xalqının mübarizə əzmi, həmrəylik ruhu və mətin iradəsi sayəsində qüdrətli Türkiyə dövləti bu çətinliklərin də öhdəsindən tez bir zamanda gələcək, bu acı sınaqdan şərəflə və daha da güclənmiş çıxacaqdır.

Bu hüznlü gündə bir daha Türkiyənin kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından başsağlığı verirəm.

Hörmətlə,

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 2 fevral 2024-cü il

*Döyüş hazırlığı*

## Onların döyüş ruhu daim yüksək səviyyədədir



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ordu quruculuğu ilə bağlı həyata keçirdiyi tədbirləri bu gün onun siyasi kursunun layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev uğurla davam etdirir. Bunun nəticəsidir ki, ən müasir silah və texnika ilə təmin olunan rəşadətli Azərbaycan Ordusu regionun ən güclü ordusuna və xalqın güvənc yerinə çevrilib. Azərbaycanın şanlı qələbəsi ilə yekunlaşan 44 günlük Vətən müharibəsi deyilənlərin bariz nümunəsidir. Döyüşlərin ilk günündən etibarən ən müasir silahlardan istifadə edərək düşmənin komanda-idarəetmə məntəqələri, raket və artilleriya vasitələri, hərbi hissələri, mövqe və bölmələri, döyüş texnikaları və təminatı sıradan çıxararaq iflic vəziyyətinə salındı. Cəsur döyüşçülərimiz işğalda olan torpaqlarımızı azad etdilər. Xalqımıza həsrətlə gözlənilən Qələbə sevincini bəxş etdilər.

Bu cəsur döyüşçülərin bir qismi ilə "N" hərbi hissəsində olarkən tanış olduq. Leytenant Samir Məmmədovla söhbətləşərkən öyrəndik ki, o, Vətən müharibəsi vaxtı Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) 4-cü kursunda oxuyurdu. Kursu bitirməyi gözləmədən öz istəyi ilə döyüşlərə qatılmağı özünə borc bildi.

- Biz Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında öz tarixi torpaqlarımız uğrunda vuruşurduq, - leytenant Samir Məmmədov dedi. - Ordumuzun arsenalında olan son dərəcə yüksək dəqiqliklə hədəfi məhvetmə və qarşısıalınmaz zərbə gücünə malik olan silahların və vətənpərvər oğulların sayəsində düşmən məğlubiyyətə düçar oldu. Döyüşlər zamanı şəxsi heyətimizin döyüş ruhu olduqca yüksək səviyyədə idi. Hər kəs bir nəfər kimi qorxu bilmədən irəliləyirdi. Nəticədə Ermənistan ordusunun torpaqlarımızda 30 ilə yaxın yaratdığı sədlər, mühəndis qurğuları dağıdıldı, komanda məntəqələri, çox sayda hərbi texnikaları, canlı qüvvəsi məhv edildi. Çıxılmaz vəziyyətdə qalan Ermənistan kapitulyasiya aktını imzalamağa məcbur oldu. Bununla da biz Ali Baş Komandanın dediyi kimi, "Tarixi ədaləti bərpa etdik". Leytenant Samir Məmmədov Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına əsasən, "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Aslan Yaqubov isə bildirdi ki, 2020-ci il sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın döyüş əmri ilə başlayan əks-hücum əməliyyatında düşmənin törətdiyi təxribatların qarşısını aldıq. "Döyüşlərin ilk günündən etibarən qorxu bilməyən şəxsi heyət bütün əngəlləri aşıb, düşmənə göz açmağa imkan vermədi. Tarixi torpaqlarımız ardarda işğaldan azad edildi. Düşmənin strateji cəhətdən əlverişli yüksəkliklərdə cəmləşməsinə baxmayaraq, məğrur əsgərlərimiz mətin addımlarla irəlilədilər. Biz irəlilədikcə onlar döyüş meydanından qaçdılar. Bir zamanlar qoca, qadın və körpələrə silah çəkən, insanlığa sığmayan hərəkətlər edən xainlər bu dəfə ordumuzun gücü sayəsində döyüş meydanında çarəsiz vəziyyətdə idilər. Azərbaycan əsgərinin əzmi və komandirlərimizin peşəkarlığı nəticəsində işğalçılar böyük itkilərə məruz qaldılar. 44 gün davam edən haqq savaşında Ermənistan silahlı birləşmələri darmadağın edildi. Haqq-ədalət bərqərar oldu. Doğma yurdumuz azad edildi. Şəhidlərimizin qisası alındı".

**(Ardı 2-ci səhifədə)**

## Xüsusi Təyinatlı Qüvvələrin hissə və bölmələri ilə taktiki-xüsusi təlim keçirilib



Müdafiə nazirinin təsdiq etdiyi 2024-cü il üçün hazırlıq planına əsasən, Xüsusi Təyinatlı Qüvvələrin (XTQ) hissə və bölmələri ilə "Şiddətli soyuqlarda döyüş əməliyyatlarının aparılması" mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, taktiki-xüsusi təlimdə xüsusi təyinatlılar ərazinin maketi üzərində tapşırıqları dəqiqləşdirib, yüksək dağlıq ərazidə və şiddətli soyuqlarda taktiki yerdəyişmə fəaliyyətlərini yerinə yetiriblər.

Şərti düşmən müdafiəsinin yarılması, dayaq məntəqəsinin ələ keçirilməsi, ilk tibbi yardımın göstərilməsi və yaralının döyüş meydanından təhlükəsiz şəkildə təxliyə edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Qarlı-şaxtalı hava şəraitində komandir heyətinin bölmələrin idarə edilməsi üzrə bilik və bacarıqlarının artırılması, döyüş əməliyyatları və xilasetmə tədbirlərinin aparılması, şəxsi heyətin xizək sürmə, eləcə də hərəkətli və hərəkətsiz vəziyyətdə atəşaçma vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulmuş tapşırıqlar yüksək peşəkarlıqla icra olunub.



# Onların döyüş ruhu daim yüksək səviyyədədir



(Əvvəli 1-ci səhifədə)

Qeyd etmək lazımdır ki, Aslanla birlikdə döyüşlərə onun qardaşı leytenant Rüstəm Yaqubov da qatılmışdı. "Biz iki qardaş ailəmizə və özümüzə söz vermişdik ki, müharibə başlayan kimi, ikimiz də Vətənimizin yeni tarix yazarlarından biriləri kimi yadda qalacayıq. 30 ilə yaxın həsrətə son qoyduq".

Aslanın qardaşı Rüstəm döyüşlərdə fərqləndiyi üçün Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən, "Zəngilanın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları, kiçik çavuş Aslan Yaqubov Vətən müharibəsində göstərdiyi igidlik və şücaətə görə "Qubadlının azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif ediliblər.

Ordumuzun qazandığı qələbənin sevincini yaşayanlardan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ələsgər Xəlilovdur. Kiçik çavuş Ələsgər Xəlilov qalib ordunun hərbi qulluqçusu olması ilə qürur duyduğunu bildirdi. Müharibə başlayan gündən atası Həzi kişi oğluna xeyir-dua verərək, onu Vətən üçün böyütdüyünü, torpaq uğrunda son damla qanınadək vuruşmağı tapşırıb.

"Uşaqlıqdan düşmənə qarşı içimdə nifrət hissi var idi. Ermənistan silahlı birləşmələri daim atəşkəsi pozur, yaşayış məntəqələrimizi iriçaplı silahlardan atəşə tuturdu. Torpaqlarımızın işğalda olması hər bir Azərbaycan vətəndaşı kimi, məni də narahat edirdi. Hərbi xidmətə gəldiyim ilk gündən yurdumun müdafiəsində ayıq-sayıq dayanacağıma, komandirlərimin əmr və tapşırıqlarını sözsüz yerinə yetirəcəyimə söz vermişdim. Ermənilərin zaman-zaman xalqımıza qarşı törətdikləri vəhşilikləri, cinayətləri heç vaxt unutmurdum. İllərlə bu tarixi anı gözləyirdim. Müharibə başladı, düşmənin törətdiyi vəhşiliklərin qisası döyüşdə alındı.

Ata nəsihətinə qulaq asaraq döyüşlərdə fəal iştirak etdim. Azərbaycan Ordusu tarixi ədaləti bərpa etdi. Düşməni ağır məğlubiyyətə uğradaraq torpaqlarımızdan çıxardı.

Müxtəlif istiqamətlərdə gedən döyüşlərdə fəal iştirak edirdim. Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında düşməni darmadağın edirdi. Mənfur qonşularımızın illərdən bəri qurduqları mühəndis-istehkam manevrləri əsgərlərimiz tərəfindən qısa zaman ərzində dəf edildi. Azərbaycan əsgəri düşmənə sarsıdıcı zərbələr vuraraq canı bahasına tarixi torpaqlarımızı işğaldan azad etdi. Düşmən ordumuzun gücünə tab gətirə bilmədi. Azərbaycan Ordusu döyüşlərdə qəhrəmanlıq göstərərək xalqımıza qələbə sevincini yaşatdı. Bu qələbə Azərbaycan tarixində əbədi olaraq qalacaq. İgidlərimizin adları dillər əzbəri olacaq, gələcək nəsillər onların hər biri ilə fəxr edəcəklər.

Qalib Azərbaycan Ordusu işğala son qoydu. Tarixi ata-baba yurdlarımız işğalçılardan qarış-qarış təmizləndi. Yurd-yuvalarından didərgin düşən soydaşlarımız artıq öz evlərinə dönə biləcəklər. Hamı kimi, biz də bu qələbənin, bu zəfərin qürurunu yaşayırıq", - deyə kiçik çavuş Ələsgər Xəlilov bildirdi.

Öyrənirəm ki, Ələsgərin atası Həzi Xəlilov Birinci Qarabağ müharibəsinin veteranıdır. O, Birinci Qarabağ müharibəsi zamanı Qazax rayonu istiqamətində gedən döyüşlərdə sücaət göstərərək, Vətənə xidməti ilə fərqlənənlərdən olub. Atasının söhbətləri onda düşmənə olan nifrət hissini oyadıb. Bu hisslə ordu sıralarına qatılan Ələsgər Vətənə xidmətdən qürur duyduğunu bildirdi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Ələsgər Xəlilov Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə "Kəlbəcərin azad olunmasına görə" medalına layiq görülüb.

İgidlik, Vətən sevgisi ürəkdən gəlir. Birinci Qarabağ müharibəsində, Tovuz döyüşlərində, İkinci Qarabağ müharibəsində şəhid olan oğullarımızın qanı yerdə qalmadı. Onların qisası məhz bu 44 gün ərzində alındı. Şəhidlərimizin ruhu şaddır. Onların adları unudulmur. Çünki biz onları yaşadırıq. Onların adları küçələrə, məktəblərə verilir, xatirələrinə bulaqlar tikilir. Bu o məqsədlə edilir ki, onları heç vaxt unutmayaq və gələcək nəsillərə adlarını, keçdikləri döyüş və həyat yollarını tanıdaq. Onları yaşatmaq hər bir Azərbaycan vətəndaşının üzərinə düşən missiyadır. Bu missiyanın öhdəsindən gəlmək isə hər birimizin mənəvi borcudur.

**Baş leytenant**
**Elvin VƏTƏNDUST,**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**



## Xocalı rayonu ərazisində artilleriya mərmiləri aşkar edilib



Azərbaycanın Qarabağ bölgəsində əraziyə baxış zamanı Xocalı rayonunda artilleriya mərmiləri aşkar edilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ordumuzun mühəndis-istehkam bölmələri tərəfindən aşkar edilmiş 8 ədəd 122 mm zirehdələn, 273 ədəd qəlpəli-fuqaslı və 285 ədəd 122 mm top mərmiləri arxalığı təhlükəsizlik qaydalarına riayət edilməklə ərazidən müsadirə edilib.

## ANAMA azad edilmiş ərazilərdə ötən həftə aşkarlanan mina və hərbi sursat barədə məlumatı açıqlayıb

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, yanvarın 29-dan fevralın 4-dək Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda piyada əleyhinə 78, tank əleyhinə 16 mina və 150 partlamamış hərbi sursat aşkarlanıb.

Bildirilib ki, 336,5 hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənib.

## Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı daim yüksək səviyyədə saxlanılır



*Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsi istiqamətində görülən işlər plana uyğun davam etdirilir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi qulluqçuların mənəvi-psixoloji vəziyyətinə müsbət təsir göstərmək, şəxsi heyətin ruh yüksəkliyini daha da artırmaq və mədəni asudə vaxtını səmərəli təşkil etmək məqsədilə müxtəlif tədbirlər keçirilir.

Asudə vaxtlarda hərbi qulluqçular mütaliə edir, bədii kitablar, qəzet və jurnallar oxuyurlar.

Həmçinin hərbi vətənpərvərlik mövzusunda filmlər nümayiş etdirilir, şəxsi heyətlə stolüstü və digər oyunlar üzrə yarışlar keçirilir.

Müdafiə nazirinin tapşırığına əsasən, hərbi qulluqçularla maarifləndirici söhbətlər aparılıb, şəxsi heyətin mənəvi-psixoloji vəziyyəti, xidməti-məişət şəraiti öyrənilib, onları maraqlandıran suallar cavablandırılıb.





Keçirilən görüşlər zamanı, həmçinin təhlükəsizlik qaydalarına ciddi əməl olunması, fərdi tərbiyə və hərbi qulluqçular arasında qarşılıqlı münasibətlərin nizamnamələrin tələblərinə uyğun qurulması istiqamətində səylərin daha da artırılmasının vacibliyi qeyd edilib.

Ümumilikdə hərbi qulluqçuların mənəvi-psixoloji hazırlığı yüksək qiymətləndirilib.

# Azərbaycan Ordusunda qidalanma: hansı yeməklər verilir, sistem necədir? - ARAŞDIRMA



*Hərbçilərin düzgün qidalanması müdafiə sisteminin vacib şərtlərindəndir. Çünki qidalanma onların gündəlik fəaliyyətinə, döyüş hazırlığına, təlim-tədrisinə təsir edən əsas amillərdəndir. Bu baxımdan, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının qidalanma rasionunda və rejimində də zaman-zaman müəyyən yeniliklər edilib. Hazırda da bu istiqamətdə NATO standartları tətbiq edilməkdədir.*

Dövlət müstəqilliyinin ilk illərində Azərbaycan Ordusu hələ tam formalaşmamışdı, texnika ilə təchizat bir yana, şəxsi heyətin normal qidalanmasında ciddi problemlər vardı. Vahid qidalanma cədvəli yox idi, hərbçilərin gündəlik qida rasionu düzgün tənzimlənmirdi. Nəticədə əsgərlər əllərində torba və ya su bidonları ilə rayon mərkəzlərinə, kəndlərə enirdilər. Qapı-qapı gəzib çörək və digər yeyəcəklər yığırdılar, artezianlardan su daşıyırdılar. Hətta faktlar var ki, keçmiş döyüş bölgələrində, düşmənlə cəbhə xəttinə yaxın yaşayış yerlərində bir evdə 5 çörək bişirdisə, onun ikisi hərbçilər üçün ayrılırdı. Birinci Qarabağ müharibəsindəki məğlubiyyəti və bir neçə rayonun işğalını nəzərə alsaq, bunların nə qədər acı bir durum olduğunu təsəvvür etmiş oları. Təəssüf ki, 1990-cı illərin əvvəlləri Azərbaycan hərb tarixində məhz belə yadda qalıb.

Azərbaycan dövləti siyasi və iqtisadi cəhətdən inkişaf etdikcə hərbi sahə də dirçəlməyə başladı. Bununla belə, çatışmayan hələ çox şey vardı. Burada da zamana ehtiyac duyulurdu və o zaman çox sürətlə keçdi.

Artıq Azərbaycan əsgəri kimdənsə çörək almır. Çünki Azərbaycan Ordusunda vahid, nizamlı qida rasionu və təminatı yaradılıb. Müasir standartlara cavab verən bütün hərbi hissələr soyuducu anbarlarla təchiz edilib. Həmçinin hərbi hissə daxilində təsərrüfat işlərinə mülki işçilər cəlb olunub, artıq əsgər yeməkxanalarında əsgərlər deyil, mülki aşpazlar çalışırlar.

**Ordunun gündəlik qidalanması necə təşkil olunur, qida rasionuna nələr daxildir?**

Bu suala cavab tapmazdan əvvəl dünyanın bəzi qabaqcıl ölkələrində hərbi qulluqçuların qida rasionuna diqqət çəkək;

"Business İnsider"in araşdırmasına görə, ABŞ Silahlı Qüvvələrində konservləşdirilmiş hərbi qidalar mülayim temperaturda 3,5 il, isti iqlimdə isə doqquz ay ərzində təzə qalır. Ordunun qida rasionunda "fastfood"lardan və 3 illik saxlama müddəti olan pizzalardan da istifadə olunur. ABŞ hərbçiləri daha çox "MRE" - yeməyə hazır qidalardan istifadə edirlər. Bu qidaları xüsusi isitməyə və hər hansı bir qatqı əlavə etməyə ehtiyac olmur. Onların seçimlərinə lobya, toyuq əriştəsi və spagetti daxildir. Həmçinin kraker, pendir, qurudulmuş meyvə içkiləri, badam, xaşxaş toxumu da "MRE" formasında qida rasionuna daxil edilib. Əsgərlər hətta ad günlərini xüsusi "MRE" tortlar ilə qeyd edə bilirlər. Alimlərin tədqiqatlarından sonra 3 il saxlama müddəti olan bibərli pizza da hərbçilərin qida rasionuna daxil edilib. Bəzi hallarda dini və sosial baxışlarına görə (vegetarianlar və s.) onların qida rasionuna digər yeməklər də əlavə olunur.

Böyük Britaniyada əsgərlərin qida rasionuna milli yemək olan "toyuq tikka masala" əlavə olunub. Onlara, həmçinin vegetarian yeməkləri, makaron, donuz əti və lobya da verilir.

Cənubi Koreyada əsgərlərə toyuqlu düyü, lobya, donuz əti kolbasaları, küftələr, qurudulmuş ədviyyatlı tərəvəz bulyonu verilir. Koreyanın dəniz piyadaları potensial təhlükələrə hazır olmaq üçün hərbi təlimlər zamanı heç bir qatqıya və isitməyə ehtiyacı olmayan hazır yeməklərlə qidalanırlar. Bu ölkənin ordusunda milli yemək kimi düyü və ət tərkibli "bibimbap"dan da istifadə edilir. 2020-ci ildə ordu əsgərlərin tezliklə vegan yeməkləri yeyə biləcəklərini bəyan edib. Yeni menyuya "tofu", tərəvəzlər, salatlar və vegetarian "bibimbap" da daxil edilib.

Bəs Azərbaycan Silahlı Qüvvələrində hərbi qulluqçuların qida rasionunda hansı yeniliklər edilib? Bu istiqamətdə NATO və qardaş Türkiyənin qidalanma sistemi necə tətbiq olunur? Bir sözlə, şəxsi heyətin qida rasionu müstəqilliyin ilk illərindəki vəziyyətdən nə ilə fərqlənir?

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin (MN) Mətbuat Xidmətindən "Report"un sorğusuna cavab olaraq bildirilib ki, Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə və bölmələrinin hərbi qulluqçularının gündəlik isti yeməklərlə qidalanması hərbi hissələrdə (gəmilərdə) ştata uyğun yeməkxanalar, kambuzlar və kayut-kompaniyalar vasitəsilə həyata keçirilir:

**Azərbaycan Ordusunda qidalanma - hansı yeməklər verilir?**

"Hərbi qulluqçuların kontingenti və onların qida təminatı normalarından asılı olaraq hərbi yeməkxanalar əsgər, matros, kursant və zabit yeməkxanalarına bölünür. Şəxsi heyətin qidalanmasının düzgün təşkili, onların səhhətlərinin qorunması və möhkəmləndirilməsi, həmçinin döyüş və ictimai-siyasi hazırlığının yüksəldilməsi ən mühüm şərtlərdəndir. Buna görə də hərbi hissə komandirləri, maddi-texniki təminatın bölmə rəisləri və ərzaq xidməti rəisləri şəxsi heyətin keyfiyyətli, tam dəyərli, dadlı və müxtəlif çeşidli yeməklərlə qidalanmasının təmin edilməsinə daim qayğı göstərirlər.

Hərbi qulluqçuların ərzaq payı normaları Nazirlər Kabinetinin 08 yanvar 2013-cü il tarixli 2 nömrəli qərarı ilə təsdiq edilib. Ərzaq payı normaları əsas və quru ərzaq paylarına bölünür. Əsas ərzaq payı normalarına ümumqoşun ərzaq payı norması, dənizçi heyəti üçün ərzaq payı norması, uçuş heyəti üçün ərzaq payı norması, müalicə ərzaq payı norması və kursant ərzaq payı norması daxildir. Hərbi lisey kursantları üçün ərzaq payı normasına xüsusi təyinatlı dəstələrinin ərzaq payı norması, kəşfiyyat qrupları üçün ərzaq payı norması, ümumqoşun quru ərzaq payı normaları daxildir. Əsas ərzaq payı normalarından başqa müxtəlif xüsusi şəraitlərdə xidmət edən hərbi qulluqçulara müxtəlif əlavə ərzaqlar verilir. Əsas ərzaq payı normasına əlavə ərzaqların verilməsi hərbi qulluqçuların müxtəlif iqlim, ərazi və çətin şəraitlərdə xidmətlə bağlı enerjisini daha da çoxlu miqdarda itirməsi ilə əlaqələndirilir".

Nazirlikdən qeyd edilib ki, adi şəraitdə xidmət edən hərbi qulluqçuların ərzaq payı normalarının enerji dəyəri ümumqoşun ərzaq payı norması üzrə 4000-4100 kkal, dənizçi heyəti üçün ərzaq payı norması üzrə 4035-4120 kkal, uçuş heyəti üçün ərzaq payı norması üzrə 4385-4450 kkal, müalicə ərzaq payı norması üzrə 3934-4000 kkal, kursant ərzaq payı norması üzrə 3930-4050 kkal, Hərbi lisey kursantları üçün ərzaq payı norması üzrə 4400-4500 kkal, xüsusi təyinatlı dəstələrin ərzaq payı norması üzrə 4974-5000 kkal eneji dəyərinə malikdir.

"2013-cü ildən etibarən milli yeməklər hərbi qulluqçuların qida rasionuna daxil edilib. Yemək menyuları tərtib olunarkən, şəxsi heyətin fikirləri nəzərə alınmaqla, müxtəlif çeşidli dolmalar (kələm, badımcan, pomidor, bibər), küftə-bozbaş, parça-bozbaş, düşbərə, səbzi plov, dovğa və digər milli yeməklərin bişirilməsinə üstünlük verilir. Yüksək dağ şəraitində yerləşən və döyüş növbətçiliyi aparan bölmələrin şəxsi heyəti üçün yay mövsümündə 4,5 litr (2 litr-içmək üçün və 2,5 litr yeməklərin hazırlanması üçün qış vaxtı isə 3,5 litr (1 litr içmək üçün və 2,5 litr yeməklərin hazırlanması üçün) iç qablaşdırılmış su təminat normalarına daxil edilib", - məlumatda bildirilib.





**Ərzaq növlərinin çeşidləri 50 növdən 125 növə çatdırılıb**

Nazirlikdən, həmçinin qeyd edilib ki, iş günü hesab olunmayan bayram günlərində normanın dəyərinin 30 faizi həcmində əlavə ərzaq payı verilir: "Hərbi hissələrin təhlükəli, əlverişsiz, yüksək dağlıq şəraitində yerləşən bölmələrinin şəxsi heyəti üçün uzunmüddətli konservləşdirilmiş 1-ci və 2-ci hazır milli və keyfiyyətli yeməklərlə təmin edilməsi üzrə lazımi tədbirlər görülüb. Belə ki, tez bir zamanda yeməklərin hazırlanmasını asanlaşdırmaq və şəxsi heyəti çeşidli yeməklə təmin etmək məqsədilə müxtəlif çeşidli dolmalar (kələm, badımcan, pomidor, bibər, qarışıq dolma), küftə, tas kabab, ətli noxud, ətli lobya, ətli yaşıl lobya və mərcimək şorbası konservləşdirilmiş halda şəxsi heyətin qidalanmasına daxil edilib.

Şəxsi heyətin qidalanmasının yaxşılaşdırılması məqsədilə ərzaq növlərinin çeşidləri artırılaraq 50 növ ərzaqdan 125 növ ərzağa çatdırılıb. Yeni inşa edilən yeməkxanalarda şəxsi heyət üçün isti çörəyin və müxtəlif çeşiddə şirniyyat məmulatlarının hazırlanması üçün çörəkbişirmə sexləri nəzərdə tutulub. Həmin sexlərdə tələbata uyğun olaraq, isti çörək və şirniyyat məmulatları olaraq, müxtəlif çeşidli bulkalar və pirojkilər bişirilərək, şəxsi heyətin qidalanmasına daxil edilir. Hazırda Azərbaycan Ordusunun hərbi hissələrində müasir tələblərə cavab verən yeməkxanalar və ərzaq anbarlarının inşası davam etdirilir. Yeməklərin keyfiyyətinin və çeşidliliyinin artırılması, eləcə də şəxsi heyətə milli, dadlı xörəklərin hazırlanmasının təmin edilməsi məqsədilə əsgər aşpaz heyəti peşəkar mülki aşpaz heyəti ilə əvəz olunub".

Qurumun mətbuat xidmətinin məlumatına görə, şəxsi heyətin mənəvi-psixoloji durumu öyrənilən zaman məlum olub ki, qidalanma zamanı əsgərlər tərəfindən milli yeməklərə üstünlük verilir: "Bu da çox müsbət qarşılanır. Bu səbəbdən sovet ordusunun dövründə olan buğda yarması, darı, arpa, yulaf kimi ərzaq növləri əsas normadan çıxarılaraq, milli yeməklərimiz olan küftə, parça-bozbaş, qarışıq dolma, düşbərə, müxtəlif çeşidli plov və digər milli yeməklərlə əvəz olunub. Azərbaycan Ordusunda şəxsi heyətin qidalanması və gündəlik normanın çatdırılması daimi olaraq nəzarətdə saxlanılır. Şəxsi heyətin təzə ərzaq məhsulları ilə təmin edilməsi üçün əlavə olaraq zəruri tədbirlər həyata keçirilir. Bundan başqa, uzun müddətdir ki, döyüş hazırlığının daim yüksək səviyyədə saxlanılması məqsədilə Azərbaycan Ordusunda hərbi qulluqçular təsərrüfat işlərinin görülməsi və yeməklərin hazırlanması kimi işlərdən azad edilib".

**(Ardı 5-ci səhifədə)**

# Gəncliyin bayrağısan, Azərbaycan əsgəri!

*Dövlət Bayrağının müqəddəsliyini sən də bilirsən. Vətən müharibəsində bu bayrağın mənəvi işığında döyüşdünüz, tarixi Zəfər qazandınız. Sizi döyüşlərə uğurlayan bayrağımızı işğaldan azad etdiyiniz ərazilərdə dalğalandırdınız. Sizdən əvvəl xidmət edən əsgərlərlə İkinci Qarabağ müharibəsindən əvvəl ön xətdə, düşmənə barmaq silkələyən səngərlərdə də kəlmələşmişik, döyüşlər ərəfəsində də, döyüşlərdə mövqe qələbələrindən sonra da. Müharibədə sizin döyüş əzminizi, qətiyyətinizi, qələbə ruhunuzu döyüş bayrağı bilirdik. Mən, mənim timsalımda "Azərbaycan Ordusu" qəzeti, "Azərbaycan Ordusu" qəzetinin timsalında Azərbaycan ictimaiyyəti. "Ali Baş Komandanın döyüş əmri ilə işğalı sonlandıracağıq!" deyirdin, "Səngərləri sərhədlərə köçürəcəyik!" qətiyyətini Vətənin sozü bilirdiniz; Azərbaycan əsgəri, siz Azərbaycan gəncliyinin bayrağı idiniz! Gəncliyimiz əsgər adını indi də bu müqəddəslikdə görür...*

Həmin vaxtlarda Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Kəlbəcərdə, Laçında, Şuşada bulud buluda dəyirdi. Torpaq yağış arzulayırdı...

Ali Baş Komandanın əkshücum əmri işğaldan qurtuluşun başlanğıcı oldu. Döyüş əzmindən sıyrılan əsgərlərimiz xalqın müharibəsini qələbə ilə tamamladı. Şuşa işğaldan azad edildi. 9 Noyabrın dan yeri Azərbaycan bayrağının işığına sarıldı. Dünya əmin oldu ki, mayəsi nur olan Azərbaycanın qayəsi də nurdu. 2023-cü ilin sentyabrına kimi ermənilərin təxribatlarını, hərbi əməliyyatlarını istiqamətləndirən, tənzimləyən Xankəndidə Azərbaycan Ordusu gənclərinin forumu keçirilir. Bu forum sənin fəaliyyətinin cığırdaşı olan niyyətin forumudu. Sizin amalınızın bayrağı Vətəndi. Qalib ordunun əsgəri olmağınızla, hərbi xidmətinizlə qürurlanırdınız, Xankəndi forumu ilə də qürurlanacaqsınız...



Forum bir azdan başlayacaq. Bir səmimi söhbətin mahiyyətinə ayaq saxlayıram:



- Ötən il Horadizdə Azərbaycan Ordusu gənclərinin forumunun təntənəsini televiziyadan izləmişdim. Forumu hamı kimi mən də Vətən müharibəsində qazanılan tarixi Zəfərin davamı bilmişdim. Ulu Öndərin sərkərdəliyi ilə 1994-cü ildə işğaldan azad edilmiş bu qəsəbədə keçirilən möhtəşəm tədbir mənim də ürəyimi dağa döndərmişdi. Bu il Xankəndi forumunun iştirakçısıyam.

"Xankəndidə belə bir tədbirin mahiyyətini bunca duyğusallıqla yaşayan əsgər, sən böyük mənəvi dünyanla ordumuzun adına layiq əsgərsən, əsgərlərimizin hamısının sənin kimi düşündüyünə zərrəcə şübhəm yoxdu..." deyirəm, əlim müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusunun çiyininə enir, Xankəndidə bu ünsiyyəti Vətən müharibəsində yaşanılmış mənəvi birliyin davamı bilirəm...

Təbiətin bu günə ehtiramı kimi Xankəndidə qarlar əriyib, sazaq sozalıb, soyuğun boyu qısalıb, yellər azalıb; bu gün ötən il noyabrın 8-də yaşanılmış ovqatın davamı kimi yaşanılır...

Forumun keçirildiyi məkan ordumuzun gənclərinin mənəvi tribunasıdı sanki. Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə keçirilən bu möhtəşəm tədbirin təntənəsi bu gün iştirakçıların ürəyinin döyüntüsündədi, zaman anlamında sabah Azərbaycan gəncliyinin dövlətçiliyə, dövlətə sədaqətinin dönməzlik coşqusu ilə qoşalaşacaq.

Azərbaycan Ordusunun gəncləri deyirlər ki, "İşğalın niyyətini yer ilə yeksan edik, Zülmətin bağrını yardıq, gecəni dan elədik!". Duyanlar üçün müqəddəslikdən süzülüb gələn bu kəlmələr qüdrətin ifadəsidi; səhnə tərtibatını polkovnik Abdulla Qurbaninin bədii (və fəlsəfi!) yozumunun uvertürası bilirəm. Tədbir iştirakçılarının baxışlarında ululuq mərtəbəsində Vətən görünür. Mənə elə gəlir ki, indicə bu məkan iştirakçıların sayı qədər sevginin işığına darlıq edəcək...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycan gənclərinə ünvanladığı "Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifə düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır, siz müstəqil Azərbaycanın XXI əsrdə yaradanlarısınız, quranlarısınız, inkişaf etdirənlərisiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq..." kəlamları tədbirin də, tədbir iştirakçılarının düşüncələrinin də nizamına dönür. Polkovnik Abdulla Qurbani 1996-cı ilin 2 fevralını, Azərbaycan gənclərinin I forumunu, forumda iştirakını, ordu gəncləri adından çıxışını, böyük tarixi şəxsiyyətin bu çıxışa, bu çıxışa görə ordu gənclərinə münasibət bildirməsini xatırladır. Sevgi var bu xatırlatmada, qürur var. "Gənclər müstəqil Azərbaycan dövlətinin mücahidi oldu, XXI əsrin müharibəsində tarixi Zəfər qazandı, ərazilərimizi işğaldan xilas etdi...", - polkovnik Abdulla Qurbaninin kəlmələri forumda iştirak edənlərin hərbi xidmətinin haradan qaynaqlandığını ifadə edir...

Həmin forumda ordu gəncləri adından polkovnik Abdulla Qurbani çıxış etmişdi. Böyük tarixi şəxsiyyət bu çıxışın forum üçün gərəkliyini bildirmişdi, ordu gəncləri adından çıxışı gözlədiyini, bu çıxışı tanıdığı gəncin etdiyindən məmnunluq duyduğunu bildirmişdi; Birinci Forumun iştirakçısı olmuş Abdulla Qurbani ordu gənclərinin Xankəndi forumunun təşkilatçısıdı...

"Zəfər marşı"nın ecazkarlığının müşayiəti ilə fəxri qarovul dəstəsi Şuşada dalğalanmış, Zəfər paradında Azadlıq meydanında, ötən ilin noyabrında Xankəndidə hərbi paradda könlü rəvanlara başərilik müjdəsi olmuş Zəfər bayrağı salona gətirilir. Bu şahanə gəliş ürəkləri coşdurur, salonu dalğalandırır. Ruhun kükrəyişi bayrağa can atır. Bu doğmalıq sevgidi, sədaqətdi. Bayrağa bu sevgi, bu sədaqət bir gerçəkliyin ifadəsidi: Dövlət bayrağına sevgi bəşəri sevgidi. İkinci Qarabağ müharibəsində Azərbaycan əsgəri döyüşlərə Dövlət bayrağımızla gedirdi. Neçə döyüşçümüzün son nəfəsi Dövlət bayrağımıza sarıldı...

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin, Azərbaycanın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilir, Dövlət Himni ifa olunur.

Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi rəisinin vəzifələrini icra edən general-mayor Elçin Xəlilov forum iştirakçılarını Müdafiə Nazirliyinin rəhbərliyi adından Gənclər Günü münasibətilə təbrik edir. Bildirir ki, Azərbaycanda gənclər forumunun yaranması böyük tarixi şəxsiyyət Heydər Əliyevin ideyasıdır və bu ideya Azərbaycanda gənclər siyasətinin mahiyyətini müəyyənləşdirib. Genaral-mayor Elçin Xəlilov Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin noyabrın 8-də Zəfər Günü münasibətilə Xankəndi şəhərində keçirilən hərbi paradda çıxışında dediyi bir kəlamı da xatırladır: "Bizə yeni müharibə lazım deyil. Biz istədiyimizə nail olduq, beynəlxalq hüququ bərpa etdik, tarixi ədaləti bərpa etdik, milli ləyaqətimizi bərpa etdik, düşmənə onun yerini göstərdik". General-mayor Elçin Xəlilov Forum iştirakçılarına müdafiə nazirinin təbrik məktubunu çatdırır, onlara xidməti uğurlar arzulayır...



Azərbaycanda gəncliyə, gənclərə münasibət dünyəvi mahiyyətlidi. Gənclərin fəaliyyətini birləşdirmək, əlaqələndirmək üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi yaradıldı. Gənclər siyasəti istiqamətində həyata keçirilən bütün tədbirlər, imzalanan sənədlər mahiyyət baxımından gənclər siyasətinin istiqamətlərini müəyyən edib.

Ordu gəncləri Ali Baş Komandanın sərkərdəliyi ilə İkinci Qarabağ müharibəsində tarixi Zəfər qazandı. Ordumuz, bu sıradan ordu gəncləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bütün əmrlərini məsuliyyətlə yerinə yetirməyə hazırdır. Bugünkü forum da bu mütəşəkkilliyin ifadəsidir.

General-mayor Bilal Çompuzov İkinci Qarabağ müharibəsinin qəhrəmanlıqlarından, qəhrəmanlarından, Azərbaycan əsgərinin son hərbi əməliyyatlarda iştirakından danışır, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ötən il yaradılan komando hərbi hissəsinə Döyüş bayrağı təqdim edərkən dediyi "Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha güclüdür" fikirlərini xatırladır, bugünkü forumun ordu gənclərinin hərbi xidmətində daha böyük mənəvi məsuliyyət olacağını bildirir...

Pilot baş leytenant Fərid İskəndərov çıxışında "Türk yıldızları"ndan söz açaraq qeyd edir ki, böyük tarixi şəxsiyyət Heydər Əliyev Azərbaycanın da ən çətin pilotajları yerinə yetirməyə qadir pilotlarının olmasını arzulayırdı. Ulu Öndərin arzuları gerçəkləşdi. Bu gün Azərbaycan yüksək hazırlıqlı pilotları ilə tanınır. Mən İkinci Qarabağ müharibəsində bir neçə döyüş uçuşu yerinə yetirdim. Tarixi Zəfər qazanılmasında Hərbi Hava Qüvvələrimizin də böyük xidmətləri oldu. Forum iştirakçılarını, onların timsalında Azərbaycan ictimaiyyətini əmin edirəm ki, ordu gəncləri, bu sıradan biz pilotlar bundan sonra da Vətənə böyük sədaqətlə xidmət edəcəyik...

İkinci Qarabağ müharibəsi başlayanda Xəzər Nəsibli Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) IV kurs kursantı olub. O da digər kursant yoldaşları ilə birlikdə döyüşlərə gedib. Xocavənd, Şuşa, Xankəndi uğrunda gedən döyüşlərdə üç dəfə yaralanıb, üçündə də hospitala getməkdən imtina edib. Çıxışında bir məqama toxunur: "İşğaldan azad etmək üçün döyüşdüyüm, yaralandığım Xankəndidə keçirilən forumun iştirakçıları sırasında olmağımdan qürur duyuram...".

(Ardı 7-ci səhifədə)

# Azərbaycan Ordusunda qidalanma: hansı yeməklər verilir, sistem necədir? - ARAŞDIRMA



(Əvvəli 3-cü səhifədə)

### Daxili Qoşunlarda qidalanma necədir?

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən "Report"a bildirilib ki, Daxili Qoşunlarda şəxsi heyətin normaya uyğun, keyfiyyətli qidalanması diqqət mərkəzindədir.

"DİN-in Daxili Qoşunlarının hərbi hissələrinin əsgər yeməkxanalarının fəaliyyəti normativlərə uyğun təşkil olunur. Hərbi hissə komandanlığının xüsusi nəzarətində olan əsgər yeməkxanalarında hazırlanan qidanın keyfiyyətinə, eləcə də buradakı səliqə-sahmana və gigiyenik qaydalara ciddi əməl edilir. Qidaların hazırlanması və rasiona uyğun təşkili ilə xüsusi hazırlığı ilə seçilən mülki işçi heyəti məşğul olur. Hərbi hissələrdə şəxsi heyətin qida rasionunda milli mətbəxə üstünlük verilir. Belə ki, şəxsi heyətin qidalanması müvafiq əmrin tələbləri əsasında təşkil olunur. Həftə ərzində hərbi qulluqçular normativlə müəyyən olunan qida ilə təmin edilir. Xüsusilə qida rasionuna birinci xörək yarmalı şorba, lobya şorbası, kələm borşu, düyü şorbası, noxud şorbası, küftəbozbaş, ikinci xörək olaraq isə qarabaşaq - mal əti ilə, makaron - mal əti ilə, plov - mal əti ilə, kartof əzməsi - mal əti ilə, kartof əzməsi - mal əti konservası ilə, kələm dolması, mal əti sousu və s. daxildir. Bununla yanaşı, gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də verilir", - məlumatda qeyd olunub.

### Bəzi ölkələrdə hərbi qulluqçulara spirtli içkilər verilir

Hərbi ekspert **Tərlan Eyvazov** "Report"a açıqlamasında bildirib ki, Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları müstəqilliyin ilk illərində keçmiş Sovet İttifaqı qaydaları ilə qidalanırdılar.

"Son dövrlər orduda hərbi qulluqçuların qidalanmasında yeniliklər edilib. Hazırda daha çox milli mətbəxə üstünlük verilir. Bu proses 10 il əvvəl başlayıb. Hərbi hissələrdə əvvəllər əsgər əməyinə əsaslanan təsərrüfat işlərinə, hərbi qulluqçuların gündəlik yeməklərinin hazırlanmasına mülki işçilər, qadın aşpazlar cəlb olunublar. NATO və Sovet İttifaqı standartları arasında böyük fərq var. NATO-da tətbiq olunan standartlar daha mükəmməldir. Biz bunu qardaş Türkiyənin hərbi sistemində müşahidə edirik. Türkiyə Silahlı Qüvvələri ilə hərbi əməkdaşlıq çərçivəsində qida təminatı onlara uyğunlaşdırılıb. Türkiyə Ordusunun qida təminatı da NATO standartlarına əsasən təşkil olunur. Müəyyən ölkələr var ki, həmin ölkələrdə hərbi qulluqçulara spirtli içkilər də verilir. Azərbaycanda yerli şirkətlər ordu üçün quru qidalar istehsal edirlər. Hər il ordunun qida təminatında yeniliklər edilir. Müstəqilliyin ilk illərində hərbi qulluqçuların qida rasionunda ətin miqdarı azaldılmışdı. Hazırda daxili istehsal imkan verir ki, ordu kifayət qədər keyfiyyətli qida ilə təmin edilsin", - T.Eyvazov deyib.

Hərbi ekspert **Üzeyir Cəfərov** da "Report"a bildirib ki, hazırda Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçularının qida rasionunda müstəqilliyin ilk illəri ilə müqayisədə xeyli dəyişiklik edilib, müsbət istiqamətdə irəliləyişlər müşahidə olunur.

"Bununla belə hələ də köhnə standartlardan tam imtina olunmayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ordunun NATO və Türkiyə standartlarına uyğunlaşdırılması barədə göstəriş verib. Bu istiqamətdə bir sıra yeniliklər olub və yenə də olacağı gözlənilir. Bu gün istənilən hərbi qulluqçuya müraciət etsək, onlar qidalanmadan şikayət etməyəcəklər, çünki hərbi hissələrdə gündəlik 3 dəfə, təyinatına görə bəzi qoşun növlərində isə 5 dəfə qida ilə təminat olur. Keçmiş Sovet İttifaqı dövründə hərbi qulluqçuların qidalanması primitiv üsullarla aparılırdı. Lakin bəzi müsbət tərəflər də var idi. Qidalar laboratoriyalarda yoxlanılır, onların enerji dəyəri müəyyən olunur, hərbi qulluqçular fiziki aktivliklərinə görə müxtəlif qidalarla təmin olunurdular", - ekspert qeyd edib.





### Türkiyədə hərbi qulluqçuların qidalanmasında Osmanlı izi

Türkiyəli hərbi ekspert Osman Qazi Kandemir "Report"a açıqlamasında bildirib ki, Türkiyə Silahlı Qüvvələrinin qidalanmasında Osmanlıdan qalan ənənəvi qidalanma sistemindən istifadə edilir.

"Bu sistemdə hərbi qulluqçular əvvəlcədən hesablanan gündəlik kalori tələbatına uyğun qidalarla təmin olunurlar. Qidaların aylıq maliyyəti hesablanır. Bu hesaba görə hər əsgərə müəyyən miqdarda pul ayrılır. Bu pullar cəmlənərək qoşun və birliklərə hərbi qulluqçuların qida rasionunun təmin edilməsi üçün hesablanır. Mərkəz ərzaq məhsullarını alaraq birliklərə paylayır. Zabitlərin gündəlik qida tələbatının ödənilməsi üçün əlavə vəsait verilir. Onlar birliklərdə yemək yeyəndə həmin qidanın xərci onlara ayrılan vəsaitdən çıxılır. Bu, Osmanlı dövründən davam edən bir sistemdir. NATO və bəzi Qərb ölkələrində fərqli sistemdən istifadə olunur. Onlar xüsusi yetişdirilən hərbi qulluqçular, birliklər üçün nəzərdə tutulan ödənişsiz qidalardan istifadə edirlər. Azərbaycan Silahlı Qüvvələrində də Türkiyənin hərbi təcrübəsindən istifadə edilir. Təbii ki, bura hərbçilərin qidalanması da daxildir. Ola bilər ki, Azərbaycan Ordusunun hərbi qulluqçularının sayı artdıqca fərqli sistem istifadə edilsin", - türkiyəli ekspert vurğulayıb.

Beləliklə, bir daha əmin olduq ki, hərbi qulluqçuların qidalanması onların döyüş qabiliyyətinə birbaşa təsir göstərir. Bunu 2020-ci ildə 44 günlük Vətən müharibəsi və tarixi Zəfərimiz də sübut etdi. Əgər zamanın tələbi ilə zamanında ayaqlaşmasaydıq, ordu quruculuğunu kompleks şəkildə formalaşdırmasaydıq, bugünkü Azərbaycan Ordusu ilə fəxr edə bilməzdik. Bu gün isə ordumuzla qürur duyuruq. Çünki o, qalib ordudur!

*Nümunəvi xidmət*

# Qaliblər sırasında olmaq şərəfdir

*Əsgər kimi Vətən keşiyində dayanmaq Rəşad Natiq oğlu Bayramovun da arzusu olub. Bu arzu, istək onda elə-belə yaranmayıb. Yeniyetməlik çağlarından Vətənimizin hərb tarixindən, torpaqlarımızın düşmən tərəfindən işğalına dair müxtəlif mənbələrdən məlumatlar öyrənib. Tədbirlərdə, Vətən uğrunda şəhidlərin xatirə gecələrində, anım mərasimlərində yaxından iştirak edib.*

Vətən uğrunda döyüşlərdə şəhid olan Telman Qurbanovun adını daşıyan Otuzikilər kənd tam orta məktəbini bitirib. Doğmaları onu hərbi xidmətə yola salanda da Vətənin mətin oğulları kimi xidmət edəcəyini, onların layiqli davamçılarından olacağını bildirib.

Hərbi həyatın ilk günlərindən təcrübəli əsgər və zabitlərdən hərb sənətinin sirlərini öyrənib. Cəbhə bölgəsində səngər həyatı yaşayan oğulların sırasında olub.

Hərbi xidmətini davam etdirmək istəyini valideynlərinə də bildirib. Atası Natiq deyib ki: "Vətən nicatını həmişə mərd oğullarından gözləyib. Sən də mərd oğullar sırasında, qəhrəman oğulların layiqli davamçılarından ol".

Rəşad Bayramov xidmətini başa vurduqdan sonra "N" hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi davam etdirib. Bir müddət sonra "Gizir hazırlığı kursu"na göndərilib. Kursu müvəffəqiyyətlə bitirdikdən sonra artilleriya hərbi hissəsində xidmətə başlayıb. 2016-cı ilin Aprel döyüşlərində xidmət etdiyi hərbi hissədə döyüşüb. Qarşıya qoyulan döyüş tapşırıqları uğurla yerinə yetirilib. Bu qələbə Vətən müdafiəçilərinin gələcək qələbələrinin başlanğıcı olub. Hərbi qulluqçular döyüş hazırlıqlarını, təlimlərini daha da artırıblar. Təlimlərdə Rəşadın da adı həmişə öndə çəkilib. Rəşad taqım komandiri kimi keçirilən yarışlarda da ona göstərilən etimadı doğruldub. Artilleriya qoşunları arasında "Artilleriya atəşinin ustası" müsabiqəsində qaliblər sırasında olub. MDB ölkələri arasında keçirilən yarışlarda 3-cü yerə layiq görülüb. Bilik və təcrübəsini tabeliyində olan şəxsi heyətə inamla öyrədib, bu gün də öyrədir.



Vətən müharibəsi başlayanda onun xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də Müzəffər Ali Baş Komandanın əks-hücum əmri ilə döyüşlərə qatılıb. Onlar qısa müddətdə düşmənin döyüş mövqelərinin, atəş məntəqələrinin, silah-sursat anbarlarının, canlı qüvvələrinin məhv edilməsində böyük şücaət göstəriblər. Artilleriyaçıların zərbələri ilə Ermənistan ordusu xeyli itkiyə məruz qalıb.

Azərbaycan Ordusunun Vətən torpaqlarını işğalçılardan azad etdi. 8 Noyabr xalqımızın tarixinə Zəfər Günü kimi yazıldı. Ancaq Qarabağda Ermənistan ordusunun qalıqları qalmaqda davam edirdi. Ermənistan üç tərəfli Bəyanata tam əməl etmədi, təxribatlarını davam etdirdi. Buna görə 19 sentyabr 2023-cü ildə əməliyyat tədbirləri keçirildi, ərazilərimizdə Ermənistan ordusunun mövcudluğuna və seperatçıların fəaliyyətlərinə son qoyuldu, ölkəmizin suverenliyi tam bərpa edildi.

Rəşad Bayramovun komandirlik etdiyi atəş taqımının şəxsi heyəti də fədakarlıqla döyüşdü.

Vətən müharibəsində göstərdiyi şücaətlərə görə Rəşad Bayramov Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Gizir Rəşad Bayramov dedi:

- Həmişə arzum olub ki, Vətən torpaqlarının düşməndən azad edəcək igid oğulların sırasında olum. Buna görə də həyatımı ordusuz təsəvvür etmirdim. Qərarımda yanılmamışam və həyat doğru yol seçdiyimi sübut etdi. Qürur hissi keçirirəm ki, qələbə tarixini yazan Vətən fədailərinin sırasındayam.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

(İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## Mövzu: IX əsrdə Azərbaycanda xalq azadlıq hərəkatı

**Suallar:**

**1. IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı.**

**2. Xürrəmilərin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə.**

**3. Xürrəmilər hərəkatının əhəmiyyəti.**

### IX əsrdə Azərbaycanda xalq-azadlıq hərəkatı

VII əsrin əvvəllərində Ərəbistan yarımadasında güclü bir feodal dövləti meydana gəldi. Asiyada, Afrikada və Avropada İslam dinini yaymaq siyasəti yeridən ərəblər İranın Rey və Qəzvin şəhərlərini işğal etdikdən sonra 639-cu ildə sərkərdə Hüzeyfənin başçılığı ilə Azərbaycana daxil oldular.

VIII əsrin ortalarında Əməvilər sülaləsinin siyasətinə qarşı Xilafətin mərkəzində və asılı ölkələrdə, o cümlədən Azərbaycanda da mübarizə kəskinləşdi. Xilafətin soyğunçu vergi siyasəti və məmurların özbaşınalığı, dəhşətli istismar və hüquqsuzluq, yerli feodalların mülklərinin və imtiyazlarının məhdudlaşdırılması, güclü ərəbləşdirmə siyasəti və başqa səbəblər əhalinin vəziyyətini ağırlaşdırmaqla yanaşı, ümumxalq qəzəbini coşdururdu. Azərbaycanda çıxışlar 748-752-ci illərdə geniş vüsət aldı. Üsyanda əhalinin bütün təbəqələri iştirak edirdilər və onlara yerli feodallar başçılıq edirdilər. Ərəblərə qarşı 748-ci ildə Beyləqanda başlamış ilk üsyan tezliklə digər vilayətləri, xüsusilə Bərdəni və Ərdəbili əhatə etdi. Xalq hərəkatı Azərbaycanın digər əyalətlərini və bütün ön Qafqazı bürüdü. 752-ci ildə üsyan amansızlıqla yatırıldı. Lakin VIII əsrin 2-ci yarısında Azərbaycanda Xilafətə qarşı çıxışlar yenidən gücləndi.

Azərbaycanda azadlıq mübarizəsinin parlaq səhifələrindən biri ərəb xilafətinə qarşı xürrəmilər (qədim pəhləvi dilində əbədi od, günəş) hərəkatıdır. Onların şüarı torpağı və istehsal vasitələrini hakim təbəqənin asılılığından xilas etmək idi. Xürrəmilər sosial bərabərlik uğrunda mübarizə aparır, bütün təbəqələrdən olan gənclər üçün istismarsız kəbin hüququ azadlığı, maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək kimi tələblər irəli sürürdülər. Xürrəmilər Azərbaycanın istiqlaliyyətini bərpa etmək, Vətəni yadellilərdən qurtarmağa çalışırdılar.

Xürrəmilərin ərəb xilafətinə qarşı mübarizənin birinci mərhələsini 748-816-cı illəri (Cavidanın üsyana rəhbərlik etdiyi və ona qədərki dövr), II dövrü 816-837-ci illəri (Babəkin üsyana rəhbərliyi öhdəsinə götürdüyü tarixdən Bəzz qalasının süqutuna qədər) və Xürrəmilər hərəkatından sonrakı dövr 838-840-cı illəri (Təbəristanda Karinlər sülaləsindən olan son əmir Məzyərin, ya da Mahyədigə ibn Karin ibn Vanda-Hürmüzün rəhbərliyi ilə üsyan və məzdəkilər hərəkatı) əhatə etmişdir.

### Xürrəmilərin başçılığı ilə ərəb işğalçılarına qarşı mübarizə

Xürrəmilərin ərəblərə qarşı azadlıq mübarizəsi 61 il davam etmişdir. Bu mübarizənin xeyli hissəsinə Bəzz qalasının sahibi Cavidan rəhbərlik etmişdir. Xürrəmilər Cavidanın rəhbərliyi altında xilafətə qarşı iki dəfə - 778 və 808-ci illərdə üsyan etmişlər. 808-809-cu illərdə Azərbaycanda Abbasi üsuliidarəsinə qarşı yönəldilmiş və yüz mindən artıq adamın qoşulduğu üsyanın yatırılmasına ərəb sərkərdəsi Abdulla ibn Malikin başçılığı altında on minlərlə atlı göndərildi. Üsyan amansızlıqla yatırıldı, üsyançıların çoxu öldürüldü, əsir alınmış kişiləri xəlifə Harun ər-Rəşidin göstərişi ilə öldürdülər, qadın və uşaqları isə qul kimi satdılar.

Uğursuzluqla nəticələnməsindən sonra xürrəmilərin xilafətə qarşı çıxışları ara verdi. Xürrəmilərin rəhbərləri olan Cavidan və Əbu İmran bu zaman ədavətə başlamış, aralarındakı münasibətləri aydınlaşdırmaqla məşğul olmuşdular. 816-cı ildə yerli feodal Əbu İmranla döyüşdə Cavidan ağır yaralanaraq aldığı yaradan öldü. Cavidanın ölümündən sonra xürrəmilər hərəkatına onun köməkçisi Babək rəhbərlik edir. Əsrlərdən bəri adı qəhrəmanlıq rəmzinə çevrilmiş Babək öz zəmanəsinin cəsur sərkərdəsi və görkəmli siyasi xadimi idi.

Babək 798-ci ildə (bəzi mənbələrə görə 795-ci ildə) Ərdəbil yaxınlığında Bilalabad kəndində anadan olmuşdur. Babək gənc yaşlarında bir neçə il çobanlıq etmiş, iki il Təbrizdə sənətkar yanında şagird olmuş, sonra Cavidanla rastlaşıb xürrəmilərin paytaxtı Bəzzə getmişdi.

Babək xürrəmilər icmasında rəhbərliyi qəbul edən zaman onun tərəfdarlarının sayı kifayət qədər çox deyildi. O, xürrəmilərə silah paylayıb göstəriş verdikdən sonra əlverişli məqam çatana kimi gözləmələrini tapşırdı. Həmin müddətdə Babək öz adamlarını Azərbaycanın hər tərəfinə göndərərək, ölkəni xilas etmək üçün onları ərəblərə qarşı azadlıq mübarizəsinə çağırdı. Ölkənin hər tərəfindən minlərlə insan Babəkin bayrağı altında toplandı. Bəzi mənbələrə görə, Babəkin ordusunda təkcə atlılar 20 min nəfər idi. Azadlıq ordusunun əsas hərəkətverici qüvvəsini kəndlilər təşkil etsə də, orada şəhər yoxsulları, sənətkarlar, orta və xırda feodallar, əhalinin müxtəlif təbəqələrinə mənsub adamlar da az deyildi.

Xürrəmilər xilafət orduları üzərində parlaq qələbələr qazanaraq, Azərbaycanı onlardan təmizlədikcə azadlıq mübarizəsinə qoşulanların sayı artırdı. Azərbaycanın cənubunda Babək tərəfdarlarının sayı artıq 300 min nəfərə çatırdı.

819-cu ildə xəlifə xürrəmilərə qarşı ilk nizami ordu göndərdi. Xürrəmilər düşməni məğlub edərək, Bərdəni, Beyləqanı, Qarabağı, Arranın bir sıra əyalət və şəhərlərini azad etdilər. Babəkin əsas tərəfdarları (Z.Bünyadovun qənaətinə görə), ermənilərdən fərqli olaraq, alban knyazları idi. IX əsrin 20-ci illərinin sonuna doğru azadlıq müharibəsi genişlənərək xilafəti sarsıtdı. Göndərilən güclü ərəb ordusu iki il hazırlıqdan sonra 829-cu il iyunun 3-də Həşdadsər dağında xürrəmilərlə həlledici savaşı başladı. Məqsəd Bəzz qalasını ələ keçirmək idi. 150 minlik ərəb ordusundan 30 min nəfəri məhv edildi. Xəlifənin sevimli sərkərdəsi Məhəmməd əl-Tusi öldürüldü. Bu, ərəb orduları üzərində xürrəmilərin 5-ci qələbəsi idi.

IX əsrin 30-cu illərinin əvvəlləri azadlıq mübarizəsinin ən uğurlu dövrü idi. Üsyançılar xilafəti lərzəyə salmışdılar. 833-cü ilin sonunda Həmədan şəhəri yaxınlığında xürrəmilər ilk dəfə ağır məğlubiyyətə uğradılar. Onların itkisi 60 mindən 100 minə qədər idi. Xəlifə Bizansla müharibəni dayandıraraq, dövlətin fəaliyyətini, bütün ordunu, maddi və hərbi sursatı xürrəmilərə qarşı yönəltdi. Orduya göndərilən ərzağın, silahın və pulun çatdırılması üçün tədbirlər görüldü. 835-ci ildə xəlifə Mötəşim məşhur sərkərdə Afşin Heydər ibn Kavusu xürrəmilərə qarşı döyüşən ərəb ordusunun baş komandanı təyin etdi. Türk mənşəli olan Afşin öz qərargahını xürrəmilərin istehkamına yaxın olan Bərzəndə köçürdü və əks kəşfiyyatı gücləndirdi. Kəşfiyyat məlumatı toplamaq, xürrəmilər arasında təfriqə salmaq, onların ən yaxşı sərkərdələrini aradan götürmək gündəlik işə çevrildi.

Azadlıq müharibəsinin illərlə uzanması və geniş əraziləri əhatə etməsi xürrəmilərdə rəhbərliyin işini çətinləşdirirdi. Əhali uzun sürən müharibədən yorulmuşdu. Düşmənə isə müntəzəm olaraq yeni qüvvələr gəlirdi. Afşinin tədbirlərindən qorxuya düşən yerli iri feodallar, Babəkin sadiq tərəfdarları və müttəfiqləri Səhl İbn Sumbat, İbn Bəis, Əbu Musa və b. tədricən ondan uzaqlaşdılar. Xəyanət nəticəsində Babəkin cəsur sərkərdəsi İsma əsir alındı, 836-cı ildə isə daha bir sərkərdə - Tərxan öz evində öldürüldü. Müharibə uzandıqca qüvvələr nisbətindəki fərq ərəblərin xeyrinə dəyişirdi. Buna baxmayaraq, xürrəmilər 836-cı ildə Həşdadsər dağı yaxınlığında döyüşdə qələbə çaldılar. 837-ci ildə xəlifə Afşinin köməyinə iki böyük ordu göndərdi. Həmin ilin yayında Afşinin qoşunu Bəzz qalasını mühasirəyə aldı.

Azadlıq müharibəsinin ilk dövründə, üsyan sürətlə genişləndiyi şəraitdə mübarizəyə qoşulan, onları silahla, ərzaqla, pulla təmin edən yerli feodallar hərəkatın müəyyən məqamında mülk və imtiyazlarını itirəcəklərini güman edərək mübarizədən uzaqlaşdılar. Bununla belə, təcrübəli sərkərdə olan Babək ağıllı taktika ilə düşmənin planlarını pozur və onları çıxılmaz vəziyyətə salırdı.

Ərəb sərkərdəsi Afşin Babəkə sülh danışığına başlamağı təklif edərək, onu inandırmağa çalışırdı ki, bağışlanması haqqında xəlifədən fərman alacaq. Lakin Babək əqidəsindən dönməyərək vətənin istiqlaliyyətini şəxsi xoşbəxtliyinə qurban vermədi. Xəlifənin təklif etdiyi imtiyazları və hədiyyələri xalqına xəyanət kimi qiymətləndirdi. Belə olduqda həlledici döyüş labüd idi və 26 avqust 837-ci ildə baş vermiş son döyüşdə xürrəmilər məğlub oldu. Daha yaxşı silahlanmış və təchiz olunmuş ərəblər əlverişli vaxtda Babəkin ordusu üzərinə hücum etdilər. Bəzz qalasını hər tərəfdən mühasirəyə alan ərəblər qala divarlarını dağıtmaq üçün daş atan mancanaqlardan və neftlə isladılmış oxlardan da bacarıqla istifadə edirdilər. Qalanın müdafiəsinə Babəkin etibarlı və cəsur sərkərdəsi Adin başçılıq edirdi. Bütün günü davam edən qanlı döyüşdə düşmən əsgərlərindən dəfələrlə az olmalarına baxmayaraq, xürrəmilər misilsiz rəşadət göstərirdilər. Onların qeyri-adi mətanəti və igidliyi ərəbləri heyrətə gətirirdi. Vətənin cəngavər oğulları müqəddəs torpağımız uğrunda şəhid olmağı şərəf sayırdılar. Bəzz döyüşü orta əsrlər müharibələri tarixində ən çox insan qırğınına səbəb olan döyüşlərdəndir. Bu döyüşdə ərəblərdən 100 min nəfər, xürrəmilərdən 80 min nəfər həlak oldu. Afşinin göstərişi ilə Bəzz qalası dağıdıldı. Qala müdafiəçilərindən 7600 nəfər əsir götürüldü.

Bəzzin süqutundan sonra Babək qardaşı Abdulla ilə birlikdə köhnə müttəfiqi Səhl ibn Sumbat tərəfindən xəyanət yolu ilə tutularaq ərəblərə təhvil verildi. 838-ci il martın 14-də xəlifə Mötəsimin hökmü ilə Babək Samirə şəhərində edam edildi. IX əsrin 2-ci yarısından etibarən xilafətdən asılı ölkələrdə, o cümlədən Azərbaycanda bir sıra müstəqil dövlətlər meydana gəldi. Xilafətə tabe olan iri dövlətlərdə milli-azadlıq hərəkatları başlandı.

### Xürrəmilər hərəkatının əhəmiyyəti

Məğlubiyyətlə nəticələnməsinə baxmayaraq, Babək hərəkatı bütün xilafəti lərzəyə salmış, Şərqdə ərəb hökmranlığına ağır zərbə vurmuşdu. Babək hərəkatı dövründə xilafətin təqribən 500 min əsgəri məhv edilmişdi. Xilafətin əsasını sarsıdan və onun dağılmasını xeyli sürətləndirən Babək hərəkatı qonşu xalqların azadlıq mübarizəsini xeyli yüngülləşdirdi və onların ərəb əsarətindən azad olmasını asanlaşdırdı. Xürrəmilərin məğlubiyyəti və Babəkin edamı Azərbaycanda, eləcə də xilafətin digər vilayətlərində ərəblərə qarşı mübarizəni dayandırmadı. 838-39-cu illərdə Təbəristanda Məzyarın başçılığı ilə üsyan başlandı. Üsyançılar xürrəmilərin şüarları ilə çıxış edirdilər. Babək hərəkatının məğlubiyyətindən sonra Arranda (Əbu Musanın başçılığı ilə Ktic qalası) xilafət əleyhinə yeni üsyanlar baş verdi.

Orta əsrlərdə baş verən digər kəndli müharibələrindən fərqli olaraq, bu müharibə hər şeydən öncə istiqlaliyyət uğrunda azadlıq müharibəsi idi. Mübarizədə xalqın imtiyazlı təbəqəsinin dönüklüyü, ərəblərə nisbətən daha cəsur və döyüşkən türk sərkərdələrinin eyni və digər mənşəli üsyançılara qarşı səfərbərliyə alınması, ən başlıcası ermənilərin xəyanəti və ərəblərə köməklik etməsi azadlıq müharibəsinin məğlubiyyətlə nəticələnməsinə səbəb oldu. Ağır məğlubiyyətə baxmayaraq, xürrəmilər hərəkatı digər asılı xalqların azadlıq mübarizəsinə təkan verməklə yanaşı, Azərbaycanda xalqın şüurunda və əməlində əsrlərlə yaşadı. Üsyançılar və onların rəhbəri Babəkə nifrət hissi bəsləmələrinə baxmayaraq, hərəkatın təsirini və əzəmətini ərəb tarixçiləri də etiraf etmişlər. İbn Təğriberdi adlı tarixçi yazırdı ki, "Babək öz zəmanəsinin qəhrəmanı və xilafəti dəhşətə gətirən bir igiddir".

VII əsrdə Azərbaycanda islam dininin qəbul olunması Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri idi. Ölkədə dini birliyin yaranması bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə, əlaqələrin genişlənməsinə səbəb oldu. Bununla belə, təkallahlı dinlərə sitayiş edənləri müsəlmanlaşdırmaq islamın prinsiplərinə zidd olduğu üçün ərəb xilafəti dövründə Albaniyanın xristian əhalisi islam dininin təsir dairəsindən kənarda qaldı. Beləliklə, ölkədə dini ayrılıq baş verdi. Çoxluq təşkil edən və ölkənin bütün ərazisinə yayılmış olan müsəlman əhali, həmçinin azlıq təşkil edən və əsasən Şimali Azərbaycanın qərb bölgələrində yaşayan xristian albanlar. Zaman keçdikcə Qərbi Azərbaycanın, o cümlədən Qarabağın dağlıq bölgələrinin xristian əhalisi qriqoryanlaşdırılmağa başlanılmış və bu ayrı-ayrı illərdə Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə sağalmaz yaralar vurmuşdur.

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan xalqımız tarix boyu arzuladığı milli dövlətçilik amallarını XX yüzilliyin sonunda məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev epoxasında gerçəkləşdirərək, dayanıqlı müstəqil Azərbaycan dövlətini qura bilmişdir. Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən rəşadətli Azərbaycan Ordusunun peşəkarlığı, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasəti nəticəsində uzun illərdən bəri düşmən işğalında qalmış torpaqlarımız azad edildi, ərazi bütövlüyümüz təmin olundu. Parlaq Qələbəmiz şanlı hərb tariximizə qızıl hərflərlə yazıldı.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Gəncliyin bayrağısan, Azərbaycan əsgəri!



(Əvvəli 4-cü səhifədə)

Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva Azərbaycanda gənclər siyasətindən, gənclərin siyasi, elmi, yaradıcı fəaliyyətindən, idman uğurlarından, ...söz açır, İkinci Qarabağ müharibəsindən, qəhrəmanlıqlardan, xalqla ordunun birliyindən, gənclərin vətənpərvərliyindən danışır, ordumuzda vətənpərvərlik duyğularının bu səviyyədə formalaşmasından məmnunluğunu bildirir, İkinci Qarabağ müharibəsində anaların müharibəyə ANA münasibətini xatırladır, bu xatırlatmanı forum iştirakçıları azərbaycançılıq xarakterinin ifadəsi kimi dinləyir. Nazir müavini əmin olduğunu bildirir ki, bu forum Azərbaycan Ordusu gənclərinin Vətənə sevgisini daha da kükrədəcək, ordu gənclərinin Vətən sevgisi ölkə gənclərinin Vətən sevgisini daha yüksək amallar səviyyəsində əsgərləşdirəcək...

Heydər Əliyev adına Hərbi İnstitutun kursantı Elgün Xanalıyev çıxışında Vətən müharibəsindən, şəhidlikdən, şəhidlərdən söz açır, ali hərbi təhsil aldıqdan sonra işğaldan azad edilmiş ərazilərimizdə xidmət etməyə qərarlı olduğunu bildirir. Hamı bu fikri Gənclər Günündə gənclərin düşüncələrinin haləsi bilir.

Hamı xatırlayır: 2020-ci ilə kimi kursantlar ön xətdə xidmət etmək istədiyini deyirdi, indi işğaldan azad edilmiş ərazilərdə xidməti özünə böyük mənəvi borc bilir. Nə gözəl düşünürsən, Azərbaycan əsgəri! Azərbaycana sevgin mənəvi dünyanın ağ işığıdı. Sən Ali Baş Komandanın bütün əmrlərini yerinə yetirməyə qadirsən. Sənin hərbi xidmətini Xankəndi forumu da uğurlayır, məmləkət də uğurlayacaq...

C.Naxçıvanski adına Hərbi Liseyin kursantı Nizami Süleymanlının çıxışı orduya sevginin ifadəsi kimi dinlənilir: "Mən də, kursant yoldaşlarım da qüdrətli ordumuzun adına layiq zabit olmaq üçün hərbi bilikləri məsuliyyətlə öyrənirik. Gələcəkdə bu forumda Hərbi İnstitut kursantı kimi iştirak etmək üçün daha məsuliyyətlə təhsil alacam..."...

Forumda bildirildi ki, Azərbaycan gəncliyi gənc Azərbaycan dövlətinin istər siyasi nüfuzunun yüksəldilməsində, istər iqtisadi gücünün artırılmasında, istərsə də Azərbaycan xalqının ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin dinamik inkişafında fədakarlıqlar göstərdilər. Azərbaycan Ordusu Ulu Öndərin tövsiyələrini, tapşırıqlarını böyük məsuliyyətlə yerinə yetirirdi ki, bu da ordu quruculuğunun dönməzliyini təmin edirdi. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğu daha dönməzliklə davam etdirildi. Ədalətli müharibədə qüdrət qalib gəldi, azərbaycançılıq tarixi öz axarına qaytardı...

Ordu gənclərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciətini Hərbi İdarəetmə Universitetinin dinləyicisi, Vətən Müharibəsi Qəhrəmanı kapitan Ramazan Hudulov səsləndirir.

Ordu gənclərinin tarixi Zəfərə ad olan qüruruna görə, hərbi xidmət amalına görə, Vətənə sədaqətinə görə Xankəndi forumu Xankəndinə deyir ki,

On illərlə saçını
yellər darayan şəhər,
Yadın söz yarasını
sözlə sarıyan şəhər,
Zəfər çaldı ordumuz,
Əl uzat göy üzündən
özün üz aydınlığı.
Bu Zəfərin ovqatı
oldu göz aydınlığı!
Qurbaninin yozumu
sənə söz aydınlığı!
Şuşaya salam yetir,
Gəncliyin tarix ilə
sorğu-sual günündə.
Son illərin ən gözəl
2 fevral günündə!..

Müdafiə nazirinin və müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisinin əmrlərini İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov çatdırır. Mükafatları general-mayor Elçin Xəlilov, general-mayor Bilal Çompuzov, Gənclər və İdman nazirinin müavini İndira Hacıyeva təqdim edirlər...



Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin təqdim etdiyi mahnılar, rəqslər maraqla izlənilir...

Qışdı. Xeyli uzaqlarda tala-tala qar görünür...

Bayraq müqəddəslikdi. "Quruluş Osman" türk bədii filmində dövləti olmayanlara sancaqsızlar - bayraqsızlar deyirlər. Bayraq yoxdusa, dövlət yoxdu, sonda xalq yoxdu...

Gənclik Vətənin bayrağıdı, sən gəncliyin bayrağısan, Azərbaycan əsgəri!..

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycanın müdafiə təyinatlı məmulatları Səudiyyə Ərəbistanında keçirilən beynəlxalq sərgidə nümayiş olunur





Səudiyyə Ərəbistanı Krallığının Ər-Riyad şəhərində ikinci dəfə təşkil edilən "World Defence Show-2024" Beynəlxalq Müdafiə Sərgisi fevralın 4-də işə başlayıb.

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Vüqar Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir.

45-dən çox ölkədən 750-dən çox iştirakçı və 115 xarici nümayəndənin qatıldığı "World Defence Show-2024" sərgisində Müdafiə Sənayesi Nazirliyinin təşkil etdiyi stenddə Azərbaycan istehsalı olan 107 adda müdafiə təyinatlı məmulatlar nümayiş olunur.

Açılış mərasimində iştirak edən V.Mustafayev Səudiyyə Ərəbistanı Krallığının müdafiə naziri Xalid bin Salman Əl-Saud ilə görüşərək, sərgi ilə bağlı xoş diləklərini onun diqqətinə çatdırıb. Nazir Türkiyə Respublikası, Səudiyyə Ərəbistanı Krallığı və digər ölkələrin qurumlarının stendlərində nümayiş etdirilən müdafiə təyinatlı məmulatlar və yeni texnologiyalar ilə tanış olub.

Səfər çərçivəsində V.Mustafayev Səudiyyə Ərəbistanı Krallığının Hərbi Sənaye Təşkilatının rəhbəri Əhməd Əbdüləziz Əl-Ohali ilə də görüşüb.

Görüşdə iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq imkanları müzakirə edilib, qarşılıqlı maraq doğuran məsələlər haqqında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, müdafiə sənayesi şirkətlərinə məxsus ən son hərbi texnologiya, avadanlıq və sistemlərin nümayiş etdirildiyi "World Defence Show-2024" sərgisi fevralın 8-i yekunlaşacaq.

# Xəbərlər: hadisələr, faktlar

## Kolumbiyada helikopter qəzaya uğrayıb, 4 nəfər ölüb



Kolumbiyaya məxsus hərbi helikopter qəzaya uğrayıb, azı 4 nəfər həlak olub.

Bu barədə yerli "Caracol" telekanalı məlumat yayıb.

Məlumata görə, "Black Hawk" helikopteri Unquia şəhəri yaxınlığında yerləşən hərbi baza yaxınlığında qəzaya uğrayıb. Xəsarət alan 3 nəfər xəstəxanaya yerləşdirilib.

Hadisənin səbəbləri barədə məlumat verilmir.

## ABŞ Yəmənə yenidən zərbə endirib



ABŞ ordusu Yəmənə yenidən zərbə endirib.

Bu barədə ABŞ Mərkəzi Komandanlığı "X" sosial hesabında məlumat yayıb.

"ABŞ ordusu Yəməndə husilərin "Ənsar Allah" hərəkatının nəzarətində olan ərazilərində pilotsuz uçuş aparatları aşkar edib və onların bölgədəki ticarət gəmilərinə təhlükə yaratdığı müəyyənləşib", - məlumatda deyilir.

## Aİ Qırmızı dənizə hərbi missiyanı fevralın 19-da göndərəcək



Qırmızı dənizə Avropa İttifaqının birgə hərbi missiyası fevralın 19-da göndəriləcək. İtaliya dənizdəki missiyaya operativ komandanlıq edəcək.

"Aspides" (yunanca "qalxan") adlı missiyaya İtaliya Hərbi Dəniz Qüvvələrinin "Duilio" super esminesi, eləcə də Almaniya, Yunanıstan və Fransa hərbi-dəniz qüvvələrinin freqat gəmiləri daxildir.

Missiyanın məqsədi husilərin Qırmızı dənizdə beynəlxalq ticarətə təsir edən hücumlarının qarşısını almaq, ticarət gəmilərinin müdafiəsini gücləndirməkdir. Hərbi missiya BMT-nin Dəniz Hüquqları Konvensiyasına uyğun fəaliyyət göstərəcək və müdafiə xarakterli olacaq.

Yaponiyada səfərdə olan İtaliyanın Baş naziri Ciorcia Meloni ölkəsinin hərbi missiyasında iştirakını və müdafiə missiyasına komandanlığının əhəmiyyətini qeyd edib. Bildirib ki, bu, Avropa və İtaliya üçün strateji əhəmiyyət daşıyır.

İtaliya Baş nazirinin müavini, xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Antonio Tayani isə missiyaya qarşı hər hansı hücum olacağı təqdirdə, lazımi tədbirlərin görüləcəyini bildirib.

İtaliya Senatının müdafiə komissiyasının sədri Stefaniya Kraksi deyib ki, ölkəsi milli maraqlarını müdafiə etmək üçün Qırmızı dənizdəki missiyaya komandanlıq edəcək.

## İsrail HƏMAS-ın Rəfahdakı birləşmələrini də məhv edəcəyini açıqlayıb



İsrail ordusu Misirlə sərhəddə yerləşən Rəfah şəhərində HƏMAS hərəkatının silahlı birləşmələrini məhv etmək niyyətindədir.

Bu barədə İsrailin müdafiə naziri Yoav Qallant mətbuat konfransında bildirib.

O, Qəzza zolağında quru əməliyyatının HƏMAS və onun liderlərinə anklavda saxlanılan israilli girovların geri qaytarılması üçün təzyiq göstərmək üçün düzgün yol olduğunu və bunun davam edəcəyini söyləyib. "Biz hələ döyüşmədiyimiz yerlərə də çatacağıq - Qəzza zolağının mərkəzinə və cənubuna, xüsusən də Rəfahda HƏMAS-ın son qalasına", - deyə nazir vurğulayıb.

Yoav Qallant qeyd edib ki, Fələstin silahlı qruplaşmaları üzvlərinin bir seçimi var - "təslim olmaq, ya da ölmək, onların başqa variantı yoxdur".

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbi hissənin yaranma günü qeyd olundu

*Vətən müharibəsində "N" hərbi hissəsinin şəxsi heyəti də iştirak edib. Hərbi hissənin həyatında unudulmaz, tarixi gün 1994-cü ilin yanvarında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə keçirilən görüşdür. Həmin gün Ulu Öndərin dərin məzmunlu, müdrik tövsiyələri, vətənpərvərlik ruhunda çıxışı döyüşçülərdə Vətənə məhəbbət, sədaqət hissini daha da artırıb.*





Böyük tarixi şəxsiyyət qətiyyətlə bildirib ki, vaxt gələcək, işğal altında olan torpaqlarımız azad olunacaq, soydaşlarımız Şuşaya, Kəlbəcərə, Laçına və başqa yerlərə qayıdacaqlar. Dahi şəxsiyyətin böyük arzusunu formalaşdırdığı Azərbaycan Ordusu, dövləti və ordumuzun sərkərdəsi Müzəffər Ali Baş Komandan və xalqımız gerçəkləşdirdi. Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə keçirilən tədbirdə qürur hissi ilə danışıldı.

Öncə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Dövlət Himni səsləndirildi.

Çıxış edənlər bildirdilər ki, hərbi hissənin şəxsi heyəti Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə düşmənə qarşı qətiyyətlə döyüşüb, Füzuli, Cəbrayıl bölgəsində döyüş əməliyyatlarında fəal iştirak edib döyüş tapşırıqlarını uğurla yerinə yetirib. Döyüşlərdə hərbi hissənin mərd oğullarından şəhidlik zirvəsinə ucalanlar da olmuşdur. Hərbi hissənin şəxsi heyəti 44 günlük Vətən müharibəsində düşmənin layiqli cavabını verərək, şəhid oğulların qisasını böyük rəşadətlə alanların sırasında olub.

Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı Azərbaycan Ordusu regionun ən güclü, qüdrətli ordusu olmaqla, dünya orduları sırasında da önəmli yer tutub. Ölkəmiz Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müdrik rəhbərliyi ilə dünya miqyasında iqtisadi, siyasi, hərbi cəhətdən inkişaf etmiş ölkə kimi tanınıb.

Qeyd olundu ki, göstərdikləri şücaətlərə görə hərbi hissənin 3 hərbi qulluqçusu "Azərbaycanın Milli Qəhrəmanı" adı ilə, 7 nəfər hərbi qulluqçusu "Azərbaycan Bayrağı" ordeni və müxtəlif orden və medallarla təltif olunub. Bu gün hərbi hissənin şəxsi heyəti müdafiə nazirinin təsdiq etdiyi döyüş hazırlığı planına əsasən, peşəkarlıqlarını, döyüşə hazırolma qabiliyyətlərini müasir dövrün tələbləri səviyyəsində təkmilləşdirir.



Çıxış edən zabit və əsgərlər Vətənə, xalqa daim sədaqətlə xidmət edəcəklərini, onlara göstərilən böyük etimadı doğruldacaqlarını bildirdilər. Xidmətdə, döyüş hazırlığında fərqlənən əsgərlərə təşəkkür elan edildi, fəxri fərmanlar, qiymətli hədiyyələr təqdim olundu. Mərkəzin nəzdində fəaliyyət göstərən "Vətən uğrunda" ansamblının təşkil etdiyi konsert proqramı rəğbətlə qarşılandı.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

## Maraq dünyamız

# Okeanda mövcud olub, qurudan ən uzaqda yerləşən ərazi - Nemo nöqtəsi



*Sakit okeanda yerləşən Nemo nöqtəsi 1992-ci ildə Hrvoye Lukatela tərəfindən kompüter simulyasından istifadə edilərək müəyyən olunan ərazidir.*

Bu məkanı özəl edən əsas amil onun okean səthində mövcud olub, qurudan ən uzaq məsafədə yerləşməsidir.

Astronavtlar Yer kürəsi üzərində yaşayan insanlardan bu əraziyə daha yaxın ola bilirlər. Belə ki, Beynəlxalq Kosmik Stansiya (BKS) Yerdən təxminən 360 kilometr məsafədə hərəkət edir. BKS Nemo nöqtəsi üzərindən hərəkət edən zaman ona ən çox yaxınlaşanlar astronavtlar olur. Adi halda planetimizin Nemo nöqtəsinə ən yaxın quru ərazisi ondan 2688 kilometr məsafədə yerləşən, qeyri-yaşayış mühitinə malik olan "Ducie Atoll" adasıdır.



Ərazi istifadədən kənarlaşdırılmış və ya məhv olmuş kosmik qurğular üçün ən uyğun yer hesab edilməkdədir. Bu səbəbdən "Nemo" biokütlədən tamamilə məhrum olunub.

"Nemo" sözü latın dilində "heç kim" deməkdir.



**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan taekvondoçuları beynəlxalq turnirdə 4 medal qazanıblar



Taekvondo üzrə Azərbaycan millisi Birləşmiş Ərəb Əmirliklərinin Fuceyra şəhərində keçirilmiş beynəlxalq turniri 4 medalla başa vurub.

G2 kateqoriyalı yarışda 87 kiloqram çəki dərəcəsində mübarizə aparan Milad Beigi Harçeqani həlledici görüşdə uduzaraq ikinci yeri tutub.

Yığmanın digər üzvləri - kişilərdən Cavad Ağayev (74 kiloqram), qadınlardan isə Məryəm Məmmədova və Səmərrux Osmanova (hər ikisi 49 kiloqram) bürünc medalın sahibi olublar.

Qeyd edək ki, Azərbaycan turnirdə 11 taekvondoçu ilə təmsil olunub.

## Azərbaycanın daha bir cüdoçusu “Böyük dəbilqə” turnirində ikinci yeri tutub




Azərbaycanın daha bir cüdoçusu Fransanın paytaxtı Parisdə keçirilən "Böyük dəbilqə" turnirində gümüş medal qazanıb.

Yarışın sonuncu günündə 90 kiloqram çəki dərəcəsində mübarizə aparan Elcan Hacıyev həlledici görüşdə Türkiyə təmsilçisi Mixael Zqankaya uduzaraq ikinci yeri tutub.

Millinin digər üzvləri Vüqar Talıbov (90 kiloqram) və Uşanqi Kokauri (+100 kiloqram) isə uğursuz nəticə göstəriblər.

Qeyd edək ki, ötən gün Zelim Tçkayev (81 kiloqram) də gümüş medalın sahibi olub.

## 2026-cı ildə futbol üzrə dünya çempionatının açılış matçı Meksikada keçiriləcək



2026-cı il futbol üzrə dünya çempionatının ilk oyunu və açılış mərasimi iyunun 11-də Mexikodakı "Azteca" stadionunda keçiriləcək.

Bu barədə Beynəlxalq Futbol Federasiyasının mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, turnirə ABŞ, Kanada və Meksika ev sahibliyi edəcək. Meksika yığmasının ilk oyundakı rəqibi daha sonra müəyyənləşəcək. Kanada komandası turnirə iyunun 12-də Torontoda keçiriləcək oyunla başlayacaq.

"Azteca" Stadionu 87 min 523 tamaşaçı tutumuna malikdir. Arena iki dünya çempionatının finalına ev sahibliyi edib: 1970 və 1986-cı illərdə. Stadion 1968-ci ildə Olimpiya futbol turnirinə ev sahibliyi edib.

2026-cı il dünya çempionatında ilk dəfə olaraq 48 komanda iştirak edəcək. Turnirin qrup mərhələsi 72 oyundan ibarət olacaq. Ölkələr hər birində dörd komandadan ibarət 12 qrupa bölünəcək, kvartetlərə birinci yeri tutan iki komanda və üçüncü yeri tutan ən yaxşı səkkiz komanda daxil olacaq. Qrup mərhələsindən sonra komandalar 116 finalda çıxış edəcək. Ümumilikdə 104 görüşdən ibarət olacaq turnir 56 gün ərzində baş tutacaq. Final matçı 2026-cı il iyulun 19-na təyin edilib.

Xatırladaq ki, əvvəllər dünya çempionatlarında 32 komanda iştirak edirdi. Turnirlər 64 görüşdən ibarət olurdu.

Hazırkı dünya çempionu Argentina millisidir.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini** mayor Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 29
Nüsxə 4646